# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 147** **Bakı şəhəri, 4 may 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın təsdiq edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarının ləğv edilməsi haqqında" 2018-ci il 12 iyul tarixli 292 nömrəli, "İnnovativ layihələrin ictimaiyyət üçün açıq reyestrinin aparılması və "Startap" pasportunun verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2021-ci il 29 yanvar tarixli 21 nömrəli qərarlarında dəyişiklik edilməsi və "Milli Nüvə Tədqiqatları Mərkəzi" Qapalı Səhmdar Cəmiyyətinin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi haqqında" 2014-cü il 3 dekabr tarixli 382 nömrəli Qərarının ləğv edilməsi barədə***

"Azərbaycan Respublikasında rəqəmsallaşma, innovasiya, yüksək texnologiyalar və rabitə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 11 oktyabr tarixli 1464 nömrəli Fərmanının 5.10-cu bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın təsdiq edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 12 iyul tarixli 292 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (II kitab), maddə 1626; 2021, № 11, maddə 1276; 2022, № 4, maddə 425, № 5, maddə 555, № 9, maddə 1092, № 10, maddə 1226) aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 3-cü hissə əlavə edilsin:

"3.Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.";

1.2. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı" üzrə:

1.2.1. 11-ci və 13-cü hissələr aşağıdakı redaksiyada verilsin:

"11. "İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi" publik hüquqi şəxs.

13. "İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi" publik hüquqi şəxs.";

1.2.2. 4-cü, 14-cü və "Qeyd" hissələr ləğv edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 29 yanvar tarixli 21 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 1, maddə 104) ilə təsdiq edilmiş "İnnovativ layihələrin ictimaiyyət üçün açıq reyestrinin aparılması və "Startap" pasportunun verilməsi Qaydaları"nın 2.1-ci bəndində "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnnovasiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində İnnovasiya və Rəqəmsal İnkişaf" sözləri ilə əvəz edilsin.

**3.** "Milli Nüvə Tədqiqatları Mərkəzi" Qapalı Səhmdar Cəmiyyətinin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 3 dekabr tarixli 382 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 12, maddə 1660; 2016, № 3, maddə 585; 2019, № 4, maddə 756, № 5, maddə 948; 2020, № 5, maddə 653) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

Xalq qəzeti .- 2023.- 6 may.- S.12.